# Turistlərin ən çox olduğu İçərişəhərdə Zərdabinin heykəli ən yaxşı seçim deyilmi?..

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar milli mətbuatımızın banisi, böyük maarifpərvər ziyalı Həsən bəy Zərdabinin İçərişəhərdə, Böyük Qala küçəsi 41 ünvanında yerləşən Azərbaycan Milli Ensiklopediyanın keçmiş binası qarşısında 1979-cu ildə qoyulmuş abidəsinin Azərbaycan Pedaqaoji Universitetinin bağına köçürülməsini təklif edib.**




AYB sədri deyib ki, birinci mərtəbəsində "La Quzu" restoranı yerləşən bir məkanda bu abidənin qalması uyğun deyil. "İndi heykəl restoranın qapıçısı kimi görünür. Təklif edirəm ki, heykəl Pedaqaoji Universitetin bağına köçürülsün", - AYB sədri Milli Məclisdəki çıxışında bildirib.

Anarın Zərdabinin heykəlinin "restoranın qapıçısı kimi göründüyünü" deməsi və onun başqa ünvana köçürülməsini təklif etməsi cəmiyyətdə ciddi narazılıqlara səbəb olub.

Həm sosial şəbəkələrdə, həm də mediada AYB sədrini ciddi tənqid edənlərin sayı çoxdur.

Yeri gəlmişkən, restoranın direktoru Anar Xanbabayev mətbuata Anar Rzayevin "La Quzu"nun daimi müştərilərindən biri olduğunu deyib.

O, həmçinin əlavə edib ki, restoranla heykəl arasında xeyli məsafə var, onların Zərdabinin heykəlinə heç bir aidiyyəti yoxdur, giriş qapıları da tamamilə ayrıdır.

Restoranın direktoru bildirib ki, əksinə, abidənin orada yerləşməsi çox müsbət haldır və Zərdabinin abidəsi marağa səbəb olur: "Heykəlin yerləşdiyi ərazi turistik zonadır, turistlər gəlib orada şəkil çəkirlər və bu, restoran olaraq bizə heç bir problem yaratmır".

Zərdabinin abidəsinin müəllifi, Əməkdar heykəltaraş Elmira Hüseynovanın qızı Əsmər Nərimanbəyova Anarın bu təklifinə etirazını öz "Facebook" hesabında bildirib.

"İçərişəhərdə on illərdir dayanan bir abidəni necə köçürmək olar? Bu abidənin müəllifinə, - anama, Azərbaycanın əməkdar heykəltəraşı Elmira Hüseynovaya qarşı necə də hörmətsizlikdir. Dünyanın hər yerində abidələr şəhərləri bəzəyib; onların ətrafında və ya yaxınlığında restoranlar və başqa hər şey tikilə bilərdi. Bu onları heç də korlamadı".

İçərişəhərdəki sözügedən heykəlin müəllifi Elmira Hüseynova, memarı isə Zeynəb Quliyevadır. Ümumi hündürlüyü 4 metr olan heykəl bürüncdəndir.

Sual yaranır ki, Zərdabinin heykəlinin İçərişəhərdən köçürülməsinin nə mənası var ki, AYB sədri belə bir təşəbbüsdə bulunub? Anar müəllim milli təəssübkeş ziyalıdır, buna heç kəsin şübhəsiz olmamalıdır. O bütün fəaliyyəti dövründə bu mövqeyini ortaya qoyub. Amma Anar müəllimin Zərdabinin heykəlinin köçürülməsi ilə bağlı təklifi heç cür anlaşılmır. Bu abidənin kimə nə maneçiliyi ola bilər ki? Onun restoranın yaxınlığında olması da hər hansı bir mənfi hal deyil. Restoran pis bir yer deyil ki, o abidənin oradan köçürülməsi zərərurətə çevrilə. Adıçəkilən restoran kifayət qədər prestijli məkandır. Eyni zamanda abidə də, restoran da şəhərimizin ən görkəmli, tarixi ünvanlarından olan İçərişəhərdə yerləşir. Onu da nəzərə almaq lazımdır ki, qədim şəhər mədəniyyətimizin şah əsərlərindən olan İçərişəhər xarici turistlərin, qonaqların sıx-sıx ziyarət etdiyi məkanlardandır. Bakıya gələn istənilən qonaq ilk növbədə İçərişəhəri görməyi arzulayır, bu məkanı gəzərkən Zərdabinin möhtəşəm abidəsini də görürlər, onunla maraqlanırlar, heykəlin qarşısında şəkil çəkdirirlər. Burada ən düzgün məsələ o ola bilər ki, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi abidənin yanına Zərdabi ilə bağlı bir neçə dildə hazırlanmış məlumat lövhəsi qoysun və abidəni ziyarət edənlər onun Azərbaycan milli mətbuatının banisi olduğunu bilib öyrənsinlər. Bu daha düzgün yanaşma olardı.

Həsən bəy Zərdabinin heykəli, büstü bir neçə yerdə qoyulub, Azərbaycan Mətbuat Şurasında, Fəxri Xiyabandakı məzarının üstündə və sair yerlərdə ucaldılıb. Onun abidəsinin İçərişəhərdə olması isə daha üstün cəhətdir. Bu baxımdan, Anar müəllimin təklifinin nəyə əsaslandığını anlamaq olmur. Heykəl şəhərin mərkəzində yerləşməlidir ki, onu hər kəs görsün. Heykəl elə tarixi bir yerdə olmalıdır. Həsən bəy Zərdabi ümummilli adamdır, o təkcə Azərbaycan mətbuatının banisi deyil, o təkcə mətbuat xadimi deyil, bu xalqın həyatında, taleyində rol oynamış böyük şəxsiyyətlərdən biridir, o Azərbaycan xalqınındır, türk dünyasınındır. Zərdabinin heykəli ən müxtəlif dövlət, ictimai-iaşə obyektlərinin qarşısında da ola bilər, sadəcə ona qayğı lazımdır. Bu baxımdan, Zərdabinin heykəlinin yerindən götürülməsi məsələsinin özü tamamilə mübahisəlidir, yanlışdır. Onun heykəli üçün ən münasib yer elə İçərişəhərdir, onu oradan götürmək münasib deyil. Zərdabinin heykəlinin harada olması əsas deyil, əsas odur ki, o, Azərbaycan xalqının qəlbində özünə əbədi abidə ucaldıb. Zərdabi ictimai yükü olan şəxsiyyətdir, dediyimiz kimi onun fəaliyyəti təkcə mətbuatla məhdudlaşmır, o, milli şüurun formalaşmasında iştirak edib, insanların dünya görüşünün inkişafına təsir göstərən şəxsiyyət olub, Azərbaycanda sivlizasiya yaradan, onu çiyinlərinə alıb aparan şəxsiyyət olub. Bu mənada bu gün Zərdabinin heykəlinin köçürülməsi məsələsinin gündəmə gətirilməsi kökündən yanlışdır və o abidə toxunulmaz olaraq qalmalıdır.

Yeri gəlmişkən, heykəllərin köçürülməsi tendensiyası Azərbaycanda olub, amma heç də hamısı uğurla nəticələnməyib. Məsələn, böyük Azərbaycan şairi Əliağa Vahidin abidəsinin Filarmoniya Bağından İçərişəhər metrostansiyasının arxasına köçürülməsi elə də uğurlu alınmadı. Çünki abidəni elə yerə qoyublar ki, çox zaman diqqətdən kənar qalır və o abidə öz əvvəlki yerində qalsaydı daha çox ziyarətçisi olardı. Odur ki, Zərdabinin də abidəsinin götürülməsi ziyanlı hal olardı. Bu baxımdan, abidənin yerində qalması tam olaraq məqsədəuyğundur, ictimaiyyət də bu qənaətdədir.

***İradə SARIYEVA***